**UOT: 902**
https://doi.org/10.59849/2409-4838.2025.4.86

# SƏLCUQLARIN AZƏRBAYCAN MƏDƏNİYYƏTİNƏ TƏSİRİ

**Şəfəq Ramiz qızı Ağayeva**
AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu, Bakı, Azərbaycan
shafaqagayeva92@gmail.com

*Məqalədə XI–XIII əsrlərdə Azərbaycan və Yaxın Şərq bölgəsində baş verən siyasi-mədəni proseslər fonunda memarlıq sənətinin inkişafı tədqiq olunur. Bu dövr Səlcuq imperiyasının yüksəlişi və parçalanması, eləcə də yerli türk dövlətlərinin, o cümlədən Azərbaycan Atabəyləri və Şirvanşahlar dövlətinin siyasi arenaya çıxması ilə səciyyələnir. Müəllif bu dövrdə baş verən memarlıq inkişafını ictimai-siyasi dəyişikliklərlə əlaqələndirir və xüsusilə Atabəylər dövründə Azərbaycanda inşa olunan memarlıq abidələrinin estetik və funksional cəhətdən yüksək səviyyədə olduğunu vurğulayır. Məqalədə həmçinin qeyd olunur ki, bəzi qərb alimləri tərəfindən irəli sürülən miqrasiya nəzəriyyələri – yəni köçəri tayfaların memarlıq üslublarının formalaşmasında həlledici rola malik olması fikri – bu bölgənin yerli və qədim memarlıq ənənələrinin inkişafı ilə təkzib olunur. Nəticə etibarilə, məqalə XI–XIII əsrlərdə Azərbaycan və yaxın regionlarda türk-islam memarlığının ümumtürk mədəni irsi kontekstində əhəmiyyətini və özünəməxsusluğunu sübut edir.*

***Açar sözlər:*** *Qalalar, XI-XIII əsrlər, memarlıq ənənələri, türbə, kaşı*

## GİRİŞ

Azərbaycan xalqının qədim və zəngin irsi bəşəriyyətə möhtəşəm abidələr və yüksək mənəvi-estetik dəyərlər bəxş etmişdir. Tarixin ilkin dövrlərindən müasir çağlara qədər formalaşaraq inkişaf edən bu miras, ölkəmizin maddi və qeyri-maddi irsinin ayrılmaz hissəsidir. Azərbaycan ərazisində ilk yaşayış və yaradıcılıq izləri isə arxeoloji qazıntılar zamanı üzə çıxarılan memarlıq nümunələrində öz əksini tapır.

XI-XIII əsrlər Yaxın Şərq və Qafqaz bölgəsinin siyasi və mədəni həyatında dərin dəyişikliklərin baş verdiyi bir dövr kimi xarakterizə olunur. Bu əsrlərdə türk-islam dövlətlərinin yüksəlişi müşahidə olunmuş, mədəniyyət və incəsənət sahələrində mühüm yeniliklər baş vermiş, arxeoloji və memarlıq baxımından zəngin bir irs formalaşmışdır.

Xüsusilə Azərbaycan tarixinin mühüm mərhələsini təşkil edən Səlcuqlar dövrünün həm siyasi, həm də mədəni baxımdan əhəmiyyətli rol oynamışdır. Anadolu və Qafqazda aşkarlanan memarlıq abidələri həmin dövrün mədəni və texnoloji inkişafını əks etdirən mühüm nümunələrdir. Səlcuqların Qafqazda olması və buradakı siyasətləri barədə Ziya Bünyadov [4], Eldəniz Məmmədov [12], Rauf Hüseynzadə [19], Əkbər Nəcəf [14] və digər tarixçilər öz əsərlərində ətraflı məlumat vermişlər. Bu tədqiqatçılar Səlcuq hakimiyyətinin Qafqazda yaratdığı siyasi və mədəni təsirləri araşdırmaqla yanaşı, onların fəaliyyətinin ümumtürk mədəni irsi baxımından əhəmiyyətini də ön plana çıxarırlar. Səlcuqların Azərbaycandakı fəaliyyətinə paralel olaraq, Anadoluda apardıqları mədəni-siyasi proseslər də ümumtürk tarixi və mədəniyyəti baxımından əhəmiyyətlidir.

Eldəniz Məmmədov, “Səlcuqlar” əsərində türklərin Səlcuqlardan xeyli əvvəl Kiçik Asiya ərazisində məskunlaşmağa başladığını qeyd edir. Səlcuqların XI əsrdə regiona köçü elmi baxımdan qəbul olunmuşdur. Onların Şərqi və Qərbi Anadoluda məskunlaşmaları bölgəyə gətirdikləri mədəniyyətin inkişafı ilə təsdiqlənir [12, s. 27].

Malazgirt döyüşündən (1071) sonra qurulan türk dövlətləri yerli əhali ilə yanaşı yaşayaraq regionun iqtisadi və mədəni inkişafına mühüm töhfələr vermişdir. Bu proses, türklərin bölgədə möhkəmlənməsi və dövlət quruculuğu üçün əlverişli zəmin yaratmışdır [12, s. 61]. Səlcuq imperiyasının zəifləməsi və tənəzzülü isə Sultan Məlik-Şahın (1092) ölümündən sonra baş verən daxili çəkişmə-

lər, sosial gərginliklər və idarəetmədəki parçalanmalarla əlaqədar olmuşdur. İstismar siyasəti və hakim zümrələr arasındakı qarşıdurmalar imperiyanın süqutunu daha da sürətləndirmişdir. Məlik-Şah və Nizamülmülkün ölümündən sonra parçalanan Səlcuq imperiyasının yerində Azərbaycan, Anadolu, Suriya, Kirman və İraq kimi bölgələrdə yaranan müstəqil türk dövlətləri və əmirlikləri regionun siyasi sabitliyinə, iqtisadi tərəqqisinə və zəngin mədəni irsinin formalaşmasına əhəmiyyətli töhfələr vermişdir [4, s. 194]. Böyük Səlcuq imperiyasının dağılmasından sonra Azərbaycanda iki böyük dövlət qaldı — Şirvan, paytaxtı Şamaxı və müvəqqəti olaraq Bakı, və Eldənizlər dövləti, paytaxtı Naxçıvan, sonra isə Təbriz [3, s. 249].

**ƏSAS HİSSƏ**

Siyasi proseslərlə paralel olaraq, bu dövrdə memarlıq sənətində də mühüm inkişaf baş vermiş və yaradılan tikililər həmin dövrün ictimai-siyasi şəraitinin mədəniyyətə təsirini əks etdirmişdir. XI–XIII əsrlərə aid memarlıq nümunələri Azərbaycanın bu dövrdə yüksək inkişaf etmiş və özünəməxsus memarlıq ənənələrinə malik olduğunu göstərir. Bu faktlar, Şərq xalqlarının mədəni inkişafını inkar edən yanaşmalarla yanaşı, müxtəlif köçəri və ya miqrasiya etmiş xalqların memarlıq üslublarının formalaşmasında həlledici rol oynadığını iddia edən nəzəriyyələri təkzib edir. Əksinə, bu nümunələr sübut edir ki, bu cür təsirlər, hətta qədim və zəngin memarlıq ənənələrinə malik ölkələrdə belə, əsas rol oynamamışdır. Bu dövrün memarlıq nümunələri göstərir ki, Azərbaycanın memarlıq inkişafı daha çox yerli mədəniyyətə və ənənələrə əsaslanmışdır [24, s. 135]. Memarlığın inkişaf xüsusiyyətləri qədimdən formalaşmış yerli bədii və tikinti ənənələrinin canlılığı ilə müəyyən olunurdu. Bu ənənələr şəhərlərin yüksəlişi və şəhər həyatının inkişafı fonunda özünəməxsus şəkildə inkişaf edirdi. Memarlıqda dünyəvi meyllərin güclənməsi xüsusi diqqət çəkir. Binaların fasad kompozisiyalarında təntənəlilik artır, memarlıq bəzəklərinin əhəmiyyəti yüksəlir və bəzi hallarda bu bəzəklər memarlıq əsərinin bədii obrazının formalaşmasında aparıcı rol oynayır. Oxşar kompozisiya sxemləri, yaxın memarlıq motivləri və formaları, eyni bəzək üsulları müxtəlif təyinatlı – dini və ictimai – binalarda, eləcə də Yaxın Şərqin qonşu və yaxın bölgələrində eyni dövrə aid abidələrdə rast gəlinir. Bütün bunlar müəyyən qədər ortaq bədii zövqlərin mövcudluğundan xəbər verir.

XI–XIII əsrlərə aid erkən memarlıq nümunələrinin ən orijinal örnəkləri Böyük Səlcuqların hakimiyyəti altında olan Cənubi Azərbaycan ərazisində qorunub saxlanılmışdır. Günümüzə qədər gəlib çatan bu tikililərin əksəriyyəti XIII əsrə, az qismi isə XII və XI əsrlərə aiddir. Tədqiqatlar göstərir ki, XI–XII əsrlərdə inşa edilmiş abidələrin hamısı birbaşa Səlcuqilər tərəfindən tikilməmişdir. Onların bir hissəsi türkmən mənşəli və ya Səlcuqlarla qohumluğu olan, lakin onlarla rəqabət və qarşıdurma içində olmuş kiçik knyazlıqlar və sülalələr tərəfindən inşa olunmuşdur [1, s.68]. Məsələn, Karput və Malatyanı idarə edən Ortokidlərə aid Malatya Ulu Camisi (XII əsr), Ərzurumdakı Saltuqluların tikdiyi Ərzurum Ulu Camisi (1179) və Tepsi Minarəli Mədrəsə (Anadoludakı ən köhnə Səlcuq dövrü minarəsi), Divriqdəki Məngücəklilərə məxsus Divriği Böyük Məscid və Darüşşifası (1228–1229), Qeysəriyyədəki Danişməndlilərin inşa etdiyi Kayseri Ulu Camisi (1135) bu qəbildəndir. Maraqlıdır ki, bu sülalələrin inşa etdikləri memarlıq nümunələri əsas siyasi güclərin tikililərindən əsaslı şəkildə fərqlənmir; əsas fərqlər daha çox bəzək elementlərinin növü və zənginliyi ilə ifadə olunur [8, s. 225]. Azərbaycan Atabəylər dövrü, Səlcuq imperiyasının parçalanmasından sonra meydana gəlmiş və XIII əsrə qədər davam etmişdir. Bu dövrdə Azərbaycanın siyasi, iqtisadi və mədəni inkişafı sürətlənmişdir. Kiçik Asiyada yaranan digər əmirliklər də bölgənin inkişafında mühüm rol oynamışdır [27]. Bu dövrün şəhərlərinin inkişafı və sənətkarlığın yüksəlişi, regionun memarlıq və infrastruktur sahələrindəki mühüm dəyişiklikləri əks etdirir. Akademik Ziya Bünyadovun "Azərbaycan Atabəylər Dövləti (1136-1225)" kitabında qeyd olunduğu kimi, Atabəylər dövrü Azərbaycan şəhərlərinin yüksəlişi və sənətkarlığın çiçəklənməsi ilə yadda qalmışdır. Naxçıvan, Təbriz, Şamaxı və Gəncə kimi şəhərlər ticarət və sənətkarlığın mərkəzlərinə çevrilmiş və bu, həm şəhər, həm də kənd həyatında ciddi dəyişikliklərə səbəb olmuşdur [4, s. 200].

Memarlıq və infrastruktur sahələrindəki irəliləyişlər isə Nailə Vəlixanlı "Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər" kitabında diqqətəlayiq tarixi abidələrin formalaşmasında mühüm rol oynadığını bildirir. XI-XII əsrlərə aid ən qiymətli nümunələr arasında Gəncə körpüləri, XII əsrdən qorunub saxlanmış Qırmızı körpü, XIII əsrə aid Mərənd-Culfa yolundakı Cuğa körpüsü, Ərdəbil körpüləri və XII əsrin ən məşhur tikililərindən Qatlanlı qız körpüsü xüsusi yer tutur. Qazax rayonunda, Xram çayı üzərində yerləşən "Sınıq körpü" də bu dövrdə inşa edilmiş və aşırımlarından birinin eni 20 metrə çatan bu möhtəşəm tikili, ustaların cəsarətli təşəbbüsü kimi qiymətləndirilə bilər [17, s. 319]. Bu şəhərlərin inkişafı, xüsusən də Naxçıvanın memarlıq abidələrinin zənginliyi, Atabəylər dövrünün Azərbaycanın şəhərsalma və memarlıq tarixində əhəmiyyətli bir mərhələ olduğunu göstərir.

Naxçıvan XII əsrdə möhkəm, daş divarlı iç qalası və onu dövrələyən bayır şəhəri və bağları ilə klassik orta əsr şəhəri idi [22, s. 80]. Eldənizlərin intensiv tikinti işləri şəhərə çoxsaylı, müxtəlif tipli binalar ilə böyük gözəllik və bədii rəngarənglik bəxş edirdi. Şəhərin Araz çayına doğru uzanan ərazisindəki böyük kompleksə şah sarayı, inzibati bina, məscid, mədrəsə, türbə, yaşayış evləri və digər yardımçı binalar daxil idi. Orta əsrlərdə Azərbaycanın paytaxt şəhərlərində belə tərkibli memarlıq komplekslərinin olması zəruri şəhərsalma tələbi idi və Naxçıvan Atabəylər sarayı bu mərkəzlərin ən qədim nümunələrindən biri idi. Atabəylər sarayının əsas tikililərindən üçü – giriş baş tağı, Came məscidi və Möminə Xatun türbəsi günümüzə qədər qorunub saxlanılmışdır [10, s. 17].

**Qalalar**

Azərbaycanın bütün hökmdarları — istər Səlcuq sultanları, istərsə də Atabəylər, istərsə də Şirvanşahlar — əsasən sərkərdə və hərbçi olduqları üçün ölkədə əmin-amanlığın bərqərar olması, karvan yollarının təhlükəsizliyinin təmin edilməsi məqsədilə qalaların inşasının vacibliyini dərk edirdilər. Tarixi mənbələrdə tez-tez adı çəkilən Şamaxının Gülüstan qalası buna misaldır. Bu qala XII əsrdə əsaslı şəkildə yenidən qurulmuş və möhkəmləndirilmişdir söyləyirlər [11, s. 93]. Dağ qalaları arasında Gədəbəydəki Qız qalası və ya Namərdqala memarlıq baxımından öz monumental görünüşü ilə seçilir. Tədqiqatçılar qalanın XII əsrin, yəni Eldənizlər dövrünün əsəri olduğunu bildirirlər [10, s. 155]. Yazılı mənbələrdə X əsrdən etibarən rast gəlinən Əlincə qalası müxtəlif hakim sülalələrə xidmət etmiş, lakin tarixdə daha çox Eldənizlərin iqamətgahı və xəzinə yeri kimi tanınmışdır.

Həmçinin qala tikililəri içərisində Abşeron qalaları xüsusi yer tutur. XII əsrdə Abşeronun böyük tarixi kəndlərinin əksəriyyətində bu qalaların ya özləri, ya da uçmuş izləri qalmışdır. Mərdəkan, Nardaran, Ramana, Şağan kimi qədim kəndlərdə bu gün də uca qəsrlərin qalıqları mövcuddur. Bu qalalar arasında günümüzə qədər gəlib çatmış Mərdəkandakı dairəvi qaladan bəhs etmək olar. XIII əsrdə inşa edilmiş bu qala yalnız müdafiə tikintisi deyil, eyni zamanda dəyərli bir sənət əsəridir. Bakının və ümumilikdə Abşeronun ən möhtəşəm və sirli abidəsi isə Bakı Qız qalasıdır. Gözəlliyi, əzəməti və memarlıq xüsusiyyətləri baxımından ona bənzər başqa bir abidə yoxdur. Tarixi haqqında fərqli fikirlər mövcuddur: bəziləri onun tarixinin Şumerlər dövrünə aid olduğunu iddia edir, bəziləri isə XII əsrdə tikildiyini sübut etməyə çalışır. Burada sadalananlar Azərbaycanın ərazisindəki qalaların yalnız kiçik bir hissəsidir. XI-XIII əsrlərdə ölkəmizdə inşa edilmiş qalalar həm sayına, həm də möhtəşəm görüntülərinə görə böyük diqqətə layiqdirlər [15, s. 10]. Bu qalalar, həm dövrün hərbi, həm də mədəni inkişafını əks etdirən mühüm abidələr kimi tarixdə əhəmiyyətini qoruyur və Azərbaycan memarlığının zənginliyini nümayiş etdirir. Qala tikililərinin bu dövrdəki geniş yayılması yalnız ölkənin müdafiə gücünü artırmaqla qalmamış, həm də şəhərsalma və memarlıq sahəsindəki irəliləyişlərin əlaməti olmuşdur. Bu qalalar müxtəlif dövlətlərdə inşa edilsə də, hamısı Səlcuq hakimiyyəti dövrünə təsadüf edir.

**Türbələr**

Səlcuqlar dövründə Azərbaycanda memarlıq baxımından zəngin və müxtəlif funksiyalara xidmət edən tikililər, o cümlədən məscidlər, mədrəsələr, türbələr, minarələr və digər ictimai və dini abidələr inşa edilmişdir. Bu dövrə aid ən yaxşı qorunan və mühafizə olunan tikililər əsasən türbələr, minarələr və məscidlərdir.

Azərbaycanda XI əsrin ən mühüm memarlıq nümunələrindən biri, Qəzvinlə Həmədan arasındakı Xərrəqan türbələridir. Səlcuqlar dövründə inşa edilən bu türbələr, sonradan Səfəvi dövründə imamzadə statusu qazanmış və "Qoşa imam" adı ilə tanınmışdır. Səkkizbucaqlı planlı bu türbələr hündürlüyü 13 metr, diametri isə 11 metr olan, bişmiş kərpicdən inşa edilmiş ikiqat günbəzdən ibarətdir [9, s. 70]. Türbələrin daxili məkanı da səkkizbucaqlı olub, künclərdə silindrik qüllələr yerləşir. Hər iki türbənin zəngin kərpic bəzəkləri və kitabələri türk bəzək sənətinin qiymətli nümunələrini təşkil edir. Bu bəzəklər, Anadoluda daş memarlığı və Osmanlı sənətinin son dövrlərində də əhəmiyyətini qorumuşdur [19, s. 14]. Ələvilər türbəsi Həmədanın mərkəzi meydanında, Səlcuqlar dövründə bişmiş kərpicdən inşa edilmiş kvadrat planlı bir abidədir. Türbə sərdabə, gövdə və günbəz hissələrindən ibarətdir. Günbəz ikiqatlı olub, xarici günbəz uçmuş, daxili günbəz isə dairəvidir. Türbənin sərdabəsinə daxil olmaq üçün qapı ilə üzbəüz yerləşən mehrabın alt hissəsindəki dairəvi pillələrdən istifadə edilir. Türbənin daxili kvadrat forma daşıyır və burada Ələvilər ailəsinin iki üzvünün məzarı yerləşir [26]. Səlcuq dövründə Marağada inşa olunan Qırmızı günbəz, Dairəvi günbəz və Göy günbəz türbələri XII əsr Şərq memarlığının inkişafını əks etdirir. Bu türbələr Marağa memarlıq məktəbinin bədii-estetik xüsusiyyətlərini və inşaat texnikasının səviyyəsini nümayiş etdirir.

Qırmızı günbəz türbəsi 1147-ci ildə memar Bəkir Məhəmməd tərəfindən tikilmiş kvadrat planlı türbədir. Kürsülük daşdan, gövdə isə bişmiş kərpicdən inşa olunmuş, piramidal günbəzlə örtülmüşdür. Türbənin dekorunda girih naxışları, kufi yazıları və ilk dəfə istifadə olunmuş göy rəngli şirəli kərpiclər diqqət çəkir.

Dairəvi günbəz türbəsi 1148-ci ildə inşa edilmiş və xarici silindrik formasına görə bu adla tanınmışdır. Gövdəsi bişmiş kərpicdən, sərdabəsi isə daş bloklardan ibarətdir. Sərdabə daxildən onbucaqlıdır və türbənin dekorativ elementləri – həndəsi naxışlar, kufi yazılar ona bədii zənginlik qatır.

Göy günbəz türbəsi 1173-cü ildə memar Əhməd Məhəmməd oğlu tərəfindən tikilmişdir. Göy rəngli kaşı materialı ilə örtüldüyü üçün bu adla tanınır. Səkkizbucaqlı planlı türbə sərdabə, gövdə və günbəzdən ibarətdir. Struktur quruluşu İranın Xərrəqan türbələri ilə oxşarlıq təşkil edir [6, s. 69].

Bu türbələr Orta əsr Azərbaycan memarlığının yüksək inkişaf səviyyəsini, regional memarlıq məktəblərinin vəhdətini və yerli memarlıq ənənələrinin zənginliyini əks etdirir.

Möminə Xatun türbəsi Səlcuq dövrü memarlığının ən görkəmli abidələrindən biri kimi Azərbaycan milli memarlığının nadir incilərindən sayılır və Şərq memarlıq sənətinin möhtəşəm nümunələrindən hesab olunur. Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz tərəfindən həyat yoldaşı Möminə Xatunun məzarı üzərində tikilmək üçün sifariş edilən türbə, 1186-cı ildə oğlu Məhəmməd Cahan Pəhləvan tərəfindən məşhur memar Əcəmi Əbubəkir oğlu Naxçıvaniyə tamamlanmışdır. Abidə el arasında "Atabəy günbəzi" adı ilə tanınır və üzərində kufi xətti ilə "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar." ifadəsi həkk olunmuşdur [10, s. 95].

Türbə, Naxçıvan memarlıq məktəbinin yüksək bədii səviyyəsini nümayiş etdirir. Bişmiş kərpicdən inşa edilən abidə yeraltı sərdabə, yerüstü gövdə və ikiqatlı günbəz örtüyündən ibarətdir. Ümumi hündürlüyü 34 metr olsa da, günümüzədək 26 metr hissəsi qorunub saxlanmışdır. Türbənin onbucaqlı sərdabəsi mərkəzi sütundan künclərə uzanan tağlarla qurulmuş, yerüstü hissəsi xaricdən onbucaqlı, daxildən isə dairəvi formadadır [10, s. 96].

Memarlıq kompozisiyası və dekorativ elementlər türbənin bədii dəyərini artırır. Kufı xətli kitabələr, girih naxışlarla bəzədilmiş tağlar və həndəsi ornamentlər onun estetik görünüşünü tamamlayır [1, s. 31]. Gövdə divarlarına kiçik kərpiclərdən yığılmış girih naxışlar əlavə edilmiş, boşluqlara isə nəbati motivlər işlənmişdir. Memar Əcəmi, türbənin səthlərində relyefli naxışlardan və göy şirəli kərpiclərdən istifadə edərək işıq-kölgə effektini yaratmışdır. Memarlıq həllinə və incəliyinə görə Möminə Xatun türbəsi orta əsrlər memarlığının şah əsərlərindən biri sayılır [18, s. 374].

Səlcuqlar dövrünə aid inşaat materialları arasında kaşıların xüsusi bir yeri vardır. "Kaşı" sözünün, orta əsrlər dövründə İranda incə keramika nümunələrinin hazırlandığı Kaşan şəhərinin adı ilə əlaqəli olduğu düşünülür. Kaşan şəhərinin inkişaf dövrü isə Böyük Səlcuq Dövlətinin sərhədləri daxilindəki dövrə aiddir. C. Qiyasi yazır ki, göy rəngli emayeli kərpiclər Böyük Selçuklu Dövlətinin başlıca memarlıq mər-

kəzlərində eyni vaxtda, XII əsrin ilk yarısında meydana gəlmişdir [10, s. 188], [13]. Bu baxımdan, biz Azerbaycanın orta əsr bölgələrində tapılan kaşı nümunələrinin XII-XIII əsrlərin əvvəllərinə aid olduğunu deyə bilərik. Kaşıların ümumiyyətlə turkuaz rəngdə şirlə örtülməsi təsadüfi deyil. Şəffaflığı və toxumasına görə xüsusilə qiymətli olan bu emal növü, adətən kobalt oksidindən əldə olunurdu. Azerbaycanın kobalt mineralları yataqlarının böyük miqdarda olması, üzəri turkuaz rəngdə (mavi və yaşıl tonlar) emalla örtülmüş kaşı istehsalının geniş yayılmasına imkan verirdi [6, s. 323].

Kaşılar arasında səkkiz guşəli ulduz şəkilli olanlar da mövcuddur. İslamda isə səkkiz guşəli ulduzun dörd tərəfi hava, torpaq, su və atəşi, digər dörd tərəfi isə kainatın istiqamətlərini bildirir. Bundan əlavə, səkkiz guşəli ulduzun maddi dünyadan səmavi dünyaya keçidi ifadə etdiyi də qeyd edilir [23, s. 192-193].

Araşdırmalar göstərir ki, müxtəlif geometrik fiqurların təsvirlərinə qədim dövrlərə aid keramika və metal məmulatlar üzərində tez-tez rast gəlinir. Tarixi inkişaf prosesində bu təsvirlər, mövcud dövrlərin fəlsəfi baxışları və estetik prinsipləri ilə səsləşərək formalaşmışdır. Səlcuq dövründə memarlıq sənəti xüsusilə Şərq mədəniyyətinin xüsusiyyətlərinə uyğun şəkildə inkişaf etmişdir. Həmin dövrə aid, Azərbaycanda istehsal olunmuş çini məmulatlarına isə İran və Orta Asiya ərazilərində də rast gəlinməsi bu sənətin geniş yayılmasından xəbər verir [20, s. 43-44].

Bu sənətkarlıq ənənələrinin konkret əyani nümunələrini isə Milli Azərbaycan Tarix Muzeyində nümayiş etdirilən Səlcuq dövrünə aid metal məmulatlar vasitəsilə izləmək mümkündür. Bu əşyalar əsasən mədən oyma texnikası ilə hazırlanmışdır. Kolleksiyada dörd bürünc qazan, döyücü qab, havan və tokmaq, kilid, qazan qolları, mis qab fraqmenti, lampa və şamdanlar kimi əşyalar mövcuddur. Şirvan bölgəsinə aid edilən bürünc qazanın gövdəsi yarımbalon formasında, üç ayaqlı və iki qulpludur. Ağız hissəsi geometrik və bitki motivləri ilə bəzədilmişdir. Qazanın üzərindəki buta naxışları və buynuz formalı qulplar, Qobustan və Gəmiqaya petroqlifləri ilə əlaqələndirilir. Bundan əlavə, Ülkər ulduzunun təsviri və keçi fiqurları da bu dövrə aid simvollardan biridir. Həmin dövrün keramika nümunələrində, habelə digər mədəniyyətlərdə də bu simvollar geniş yayılmışdır [7, s. 31].

Səlcuq dövrünün başqa bir nümayiş əşyası olan havan və tokmaq, Naxçıvanda hazırlanmış və üzərində maraqlı bitki və geometrik naxışlar mövcuddur. Bu əşyada "Səlcuq zənciri" və quş təsvirləri xüsusilə diqqət çəkir. Quş, İslam dünyasında və Bizansın tətbiqi sənətlərində çox yayılmış bir simvol olub, əbədi həyatın və cənnət quşunun təmsilçisidir. Eyni zamanda, havan və tokmağın üzərindəki kufi yazılar Allahın qüdrətini və qoruyuculuğunu ifadə edir [21, s. 332]. Bu cür havan və tokmaqlar Türkmənistan torpaqlarında da tapılmışdır və kronoloji baxımdan XI–XII əsrlərə aid olduğu vurğulanmışdır [25, s. 141].

Bu metal məmulatlar, həmçinin əjdaha və qoç boynuzu kimi qədim simvolları da özündə daşıyır. Əjdaha, həm uğur, həm də suyun qoruyucusu kimi qəbul olunub, qoç boynuzu isə zəfər və bolluq simvoludur [5, s. 70]. Bütün bu simvollar Səlcuq dövrü mədəniyyətində, həmçinin digər türk dünyası xalqlarında geniş istifadə olunmuşdur.

## MÜASİR DÖVRDƏ TƏDQİQAT VƏ MÜHAFİZƏ

Bugünkü dövrdə Azərbaycan ərazisində yerləşən XI–XIII əsr memarlıq nümunələrinin tədqiqi, bərpası və mühafizəsi istiqamətində bir sıra mühüm addımlar atılmışdır. Bu istiqamətdə AMEA Arxeologiya və Antropologiya İnstitutu, Azərbaycan Memarlıq və İnşaat Universiteti, İCOMOS Azərbaycan Komitəsi və digər müvafiq qurumlar tərəfindən sistemli elmi layihələr həyata keçirilir. Eyni zamanda, UNESCO-nun Maddi Mədəni İrs Siyahısına daxil edilmiş bəzi abidələr beynəlxalq səviyyədə də qorunur.

Bəzi memarlıq nümunələri, məsələn, Şamaxı Cümə Məscidi, Möminə Xatun türbəsi, Naxçıvanın Atabəylər Kompleksi, Bakının İçərişəhəri kimi abidələr bərpa edilmiş və turistlərin, həmçinin tədqiqatçıların üzünə açılmışdır. Bu abidələrin ətrafında yaradılmış muzeylər və ekspozisiyalar vasitəsilə həm tarixi maarifləndirmə, həm də mədəni irsin gələcək nəsillərə ötürülməsi təmin olunur [2, s. 31].

**YEKUN NƏTİCƏ**

Səlcuqlar dövrü, Azərbaycan tarixinin mühüm bir mərhələsini təşkil etməklə yanaşı, bu dövrün mədəniyyətinə də müsbət təsirlər göstərmişdir. Səlcuqların Azərbaycana gəldiyi dövr, həm siyasi, həm də mədəni baxımdan böyük dəyişikliklərin yaşandığı bir zaman dilimi olmuşdur. Bu dövrdə, xüsusilə Azərbaycanın memarlıq və sənətkarlıq sahələrindəki inkişaf, mədəni irsimizi zənginləşdirmiş, həmin dövrün mədəniyyətini yaşadan və gələcək nəsillərə çatdıran bir çox qiymətli nümunələr ortaya çıxmışdır [16, s. 60].

Azərbaycan arxeoloqları tərəfindən aparılan arxeoloji qazıntılar nəticəsində aşkar olunan və tədqiq edilən Səlcuqlar dövrünə aid materiallar, yalnız dövrün sənətini deyil, həm də o dövrün cəmiyyətini, sosial-iqtisadi həyatını və mədəniyyətini daha yaxşı anlamağa imkan verir. Bu materiallar, dövrün insanlarının estetik baxışlarını, mədəni dəyərlərini və vizual gözəl sənət anlayışlarını əks etdirən mühüm maddi mədəniyyət nümunələridir. Xüsusilə keramika sənəti, metal işləri və memarlıq sahəsindəki tapıntılar, dövrün texnoloji inkişaflarını, həmçinin estetik tələblərə uyğun şəkildə işlənmiş sənət nümunələrini bizə təqdim edir.

Bu əsərlər, həm dövrün mədəni zənginliyini, həm də Azərbaycandakı  sənətkarlıq və memarlıq anlayışlarının təkamülünü göstərir. Onlar yalnız tarixçilər və arxeoloqlar üçün deyil, həm də Azərbaycan mədəniyyətinin davamlı inkişafını izləyən hər kəs üçün böyük əhəmiyyət kəsb edir. Bu mədəni irs, yalnız keçmişin deyil, həm də bu günümüzün və gələcəyimizin mədəniyyətinə olan bağlılığımızı göstərir. Arxeoloji qazıntılar və müasir tədqiqatlar vasitəsilə aşkar edilən bu əsərlər, Azərbaycan mədəniyyətinin zənginliyini və mədəni irsini gələcək nəsillərə çatdırmaq üçün böyük bir qaynaq rolunu oynayır.

**ƏDƏBİYYAT**

1. Aslanapa, O. Türk Saneti / O.Aslanapa. - İstanbul: Remzi Kitabevi A.Ş.; - 1997. - 454 s.
2. Azərbaycan arxeologiyası: Orta əsrlər. 6 clddə. VI cild. Bakı: Şərq-Qərb, - 2008. - 632 s.
3. Azərbaycan tarixi. Yeddi clddə. II cild (III-XIII əsrin I rübü). Bakı: Elm, - 2007. - 608 s.
4. Bunyadov, Z. Azərbaycan Atabəylər Dövləti / Z.Bunyadov. Bakı: Şərq-Qərb, - 2007. - 312 s.
5. Əfəndi R. Azərbaycan incəsənəti / R.Əfəndi. Bakı: Şərq-Qərb, - 2007. - 160 s. + 112 s. (illüstrasiyalar).
6. Hebibov X. Ortaəsr Şəmkir Şəhərinin İnşaat Keramikası. Antik və Orta əsr Azərbaycan Şəhərləri: Arxeoloji İrsi, Tarixi və Memarlığı // Beynəlxalq Elmi Konfransın Materialları, - Bakı, - 2012. – s. 323.
7. İsmayılova A. Milli Azərbaycan Tarixi Muzeyinin arxeoloji materiallarına görə Azərbaycanda Səlcuq dövrü. XVIII Türk Tarih Kongresi Bildirileri // Cilt II, Türk Tarih Kurumu, - 2022, - s. 29–38.
8. Qənbərova, G. Anadolunun Səlcuq dövrü saray memarlığında üslub və motivlər // Naxçıvan Dövlət Universiteti, Qeyrət nəşriyyatı; Elmi Əsərlər, - 2018, cild 2, № 5(94), s. 223–233.
9. Qiyasi C. Xərrəqan türbələri və Azərbaycanın Səlcuq dövrü memarlığı / C.Qiyasi. Azərb. SSR Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası, - 1977.
10. Qiyasi C. Nizami dövrü memarlıq abidələri / C.Qiyasi. Bakı: İşıq, - 1991. - 264 s.
11. Quliyeva, S. Şirvanın orta əsr müdafiə istehkamlarının maddi mədəniyyəti haqqında // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, - 2017. №1, - s. 90–97.
12. Məmmədov E. Səlcuqlar / E.Məmmədov. Dərs vəsaiti. – Bakı: Mütərcim, - 2015. – 204 s.
13. Mustafaev M. Astara rayonu, Alaşa kəndi ərazisində yerləşən Əlişa və ya Divaka qalasında 15 iyul – 13 avqust 2024-cü il tarixlərində aparılmış arxeoloji tədqiqatların hesabatı. Əlyazma hüququnda. Bakı: AMEA Arxeologiya və Antropologiya İnstitutu, - 2024.
14. Nəcəfov N. Selçuklu Dövləti və Atabeylər Tarixi: Oğuzların Ortaya Çıxmasından XIV əsrə qədər / N.Nəcəfov. Bakı: Qanun, - 2010. - 756 s.

15. Tarixin daş yaddaşı: Metodik vəsait / Tərtibçi G.Səfərəliyeva; Red.: K.Tahirov; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. - B.: 2009. - 67 s.

16. Soofizadeh, A. Böyük Səlcuqlular dövründə Azərbaycan // Selçuklu Araştırmaları Dergisi, - 2023. №18, s. 53–72.

17. Vəlixanlı N. Məmmədəli qızı. Azərbaycan VII–XII əsrlərdə: tarix, mənbələr, şərhlər, - Bakı: - 2016. 480 s.

18. Алескерзаде А. Надписи архитектурных памятников Азербайджана эпохи Низами (Архитектура Азербайджана эпохи Низами). Баку, - 1947. - с. 369–390.

19. Гусейн-Заде, Р.А. Кавказ и сельджуки / Р.А. Гусейн-Заде. – Баку: Кавказ, - 2010. - с. 272

20. Достевский М. Старина и быт Средней Азии / М.Достевский. – Москва: - 1917. - с. 43–44.

21. Достиев Т.М. Поливная керамика средневекового города Шамкир // Поливная керамика Среднеземноморья и Причерноморья X–XVIII вв. [Поливная керамика Средиземноморья и Причерноморья X–XVIII вв.]. Казань – Кишинёв: - 2017. – с. 329–335.

22. Сысоев В.М. О Нахичеванских памятниках / В.М.Сысоев. - Баку: История с издательством, - 1991. - 91 с.

23. Стародуб Т.Х. Исламский мир, художественная культура VII–XVII века (архитектура, изображение, орнамент, каллиграфия) // Москва, - 2010. - с. 192–194.

24. Усейнов М.А., Бретаницкий Л.С., Саламзада А.В. Архитектура Азербайджана XII–начало XIII века. Всеобщая история архитектуры // Том 8. Архитектура стран Средиземноморья, Африки и Азии. VI–XIX века. Строиздат: - 1969. - с. 134–145.

25. Художественная культура Центральной Азии и Азербайджана IX-XV веков // Т. III. Торевтика. — Самарканд-Ташкент: - 2012. - 141 с.

26. Qənbərova G. Azərbaycanın Səlcuq dövrü türbələri. 2023. https://www.researchgate.net/publication/378077759_AZRBAYCANIN_SLCUQ_DOVRU_TURBLR

27. Peacock ACS. The Great Seljuk Empire. Edinburgh: Edinburgh University Press; 2015. https://doi.org/10.1515/978074863827

## SELJUK INFLUENCE ON AZERBAIJAN CULTURE

**Sh.R. Agayeva**

The article explores the development of architectural art in Azerbaijan and the Middle East during the 11th–13th centuries in the context of political and cultural processes. This period is marked by the rise and fall of the Seljuk Empire and the emergence of Turkic states on the political stage, including the Atabeg State of Azerbaijan and the Shirvanshahs. The author connects architectural development with socio-political changes and highlights the high aesthetic and functional level of the architectural monuments built during the Atabeg period. It is also noted that the migration theory proposed by some Western scholars — asserting the decisive role of nomadic tribes in shaping architectural styles — is not supported by the historical and cultural heritage of the region. In conclusion, the significance and uniqueness of the Turkic-Islamic architecture of the 11th–13th centuries in Azerbaijan and neighboring regions is emphasized within the context of the common Turkic cultural heritage.

**Keywords:** *Fortresses, 11th-13th centuries, architectural traditions, mausoleum, ceramic tiles*

# ВЛИЯНИЕ СЕЛЬДЖУКОВ НА КУЛЬТУРУ АЗЕРБАЙДЖАНА

**Ш.Р. Агаева**

В статье исследуется развитие архитектурного искусства в Азербайджане и на Ближнем Востоке в XI–XIII веках на фоне политико-культурных процессов. Этот период характеризуется подъёмом и распадом Сельджукской империи, а также появлением на политической арене тюркских государств, в том числе государства Атабеков Азербайджана и Ширваншахов. Автор связывает архитектурное развитие с общественно-политическими изменениями и подчёркивает высокий эстетический и функциональный уровень архитектурных памятников, построенных в период Атабеков. Также отмечается, что теория миграции, выдвинутая некоторыми западными исследователями, утверждающая решающую роль кочевых племён в формировании архитектурных стилей, не подтверждается историко-культурным наследием региона. В заключение подчеркивается значимость и самобытность тюрко-исламской архитектуры XI–XIII веков в Азербайджане и сопредельных регионах в контексте общетюркского культурного наследия.

**Ключевые слова:** *Крепости, XI-XIII века, архитектурные традиции, мавзолей, изразцы*